# "QÖNÇƏLƏR ÇİÇƏK OLACAQ"



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Şəmsi Vəfadar "Səni ömrümə yazmışam" yeni şeirlər kitabı ilə oxucuların görüşünə gəlib və elə bilirəm, bu növbəti görüş uğurlu alınacaq. Çünki Şəmsinin oxuculara deməyə sözü çoxdu və yeni kitabındakı şeirlərində də ürəyindən keçənləri, onu narahat edən, daim düşündürən mətləbləri şeir dililə ifadə etməyə çalışır.**

Onun şeirləri fərdi-subyektiv duyğuların ifadəsidi və təbii ki, bu fərdi duyğular təkcə özünə aid deyil, bu fərdi duyğularda dünya, ömür, zaman, ölüm və həyat, yurd və Vətən haqqında poetik düşüncələr də öz əksini tapır. Şəmsinin qəhrəmanı son dərəsə həssas, lirik duyğulu bir insandır. Daha doğrusu, kövrək hisslərlə yaşayan bir müasirimizdir. Həmçinin, öz millətini, dövlətini, onun bayrağını, torpağının hər qarışını sevən müasirimizdir. Budur, o, bizi Azərbaycan bayrağına doğru çəkib aparır:

**Mən bilirəm ki, səni vəsf etmək çox çətindi,**
**Səni yenilməz edən ölməyən qüdrətindi,**
**Sən harda dalğalansan ora bu millətindi,**
**Zirvələrdə ucal sən, qoy yayılsın sorağın,**
**Ey sevgili bayrağım!**

Şəmsinin lirik qəhrəmanı həmişə səfərdədir. Bu səfərlər gah xəyali olur, tarixin uzaq əsrlərinə doğru baş alır, gah Arazı keçir, qan qardaşlarımızın yanına tələsir, gah da bizi Şəhidlər Xiyabanına doğru çəkib aparır, hər halda, bu səfərlər lirik qəhrəmanın xarakterini, duyğular, düşüncələr aləmini canlandırır. Bu yollarda, bu səfərlərdə itkilər də olur, ağrılı anlar da. Bir cavanın qəfil ölüm xəbəri şeirdə təsirli bir ağıya, elegiyaya çevrilir:

**İtirdik bir əsgəri**
**Sazda bir sim ağladı.**
**Tarda bir sim göynədi**
**Evdə əksi ağladı.**

**"Sevirəm" kəlməsi də**
**Qəlbdə köz-köz ağladı.**
**Ruhu dil-dil ağladı,**
**Eşqi söz-söz ağladı.**

**Hönkürdu qoca Təbriz**
**Araz-Araz ağladı.**
**Dərbəndimiz, Şuşamız**
**Demirəm az ağladı.**

Poeziyamızda "zindan şeirləri" də bir kiçik qol təşkil edir və Xaqanidən üzü bəri şairlər bu antiazadlıq mövzusuna müraciət etmişlər. Şəmsinin kitabında da iki belə bölmə var: "Uzun səfər" və "Baharsız zindan". Ancaq bu bölmələrdə olan şeirlərdə təkcə zindan həyatı, daha doğrusu, zindanda keçən günlər təsvir edilmir, həm də insana bəzən zindan kimi ağır gələn tənhalıqdan da söz açılır. Bəzən tənhalıq da zindan həyatı kimi ağırdır, insanı qəmə, qüssəyə qərq edir, sanki azadlıqda azadlığın əlindən alınıb. İnsan özü ilə ləçəkləri solan çiçək arasında bir oxşarlıq görür:

**Arzuların dəydi daşa,**
**Ləçəkləri solan çiçək.**
**Ömrün nə tez çatdı başa**
**Ləçəkləri solan çiçək.**

**Bəxt ulduzun sönüb nədi?**
**Fələk göydən enib nadi?**
**Tale üzünə gülmədi**
**Ləçəkləri solan çiçək.**

Kitabda mərhum şair Əjdər Fərzəlinin "Sözün su saflığı haqqında" adlı bir




yazısı diqqəti cəlb elədi. O yazıda Əjdər müəllim yazırdı: "Əsil şairlər kədərli notlardan yaxa qurtara bilirlərmi? Bu da mümkünsüzdür. Kədəri də yalnız "diplomatcasına" gözdən salmaq olar. Kədər poeziyasını əsil şairlərdən soruşun. Sevgi notları kədərsiz səsləndimi? Bütün böyük şairlər hicran qəmindən yaxa qurtara bilməyib. Hicran qəmində mənalar görüb, ömrü o qəmə tapşırıblar".

Şəmsi Vəfadarın şeirlərində də qəmli, kədərli notlar az deyil. Öncə adlarını çəkdiyim bölmələrdəki şeirlərdə, həmçinin sevgi şeirlərində qəm, kədər notları üstünlük təşkil edir. Bunu təbii sayıram. Əgər insanın ürəyində, hisslər aləmində burulğanlar baş verirsə, həyatında nicarançılıq, narahatlıq yaranırsa, kədər buludları üstünü alacaq. İnsan kədər yağışına bürünəcək. Elə kədərdən yaxa qurtarmağın yolu da bu kədəri özününküləşdirməkdir, həyat isə davam edəcək. Kədər tam mənada ümidsizliyə aparıb çıxarmır.

**Gülüm, səndən ayrı düşdüyüm gündən,**
**Gözümün içində qəm gəzdirirəm.**
**Eşqindən od tutub yanan könlümdə**
**Sanma ki, bir özgə sən gəzdirirəm.**

**Sən yoxsan, vüsal da məndən uzaqdı,**
**Sənsiz gələn bahar qardı, sazaqdı.**
**Demə ki, ömrümün yolları ağdı,**
**Qəlbimdə duman var, çən gəzdirirəm.**

**İnanma, sevməkdən bezər ürəyim,**
**Hələ sənsizliyə dözər ürəyim.**
**Kədərin içində üzər ürəyim,**
**İçi dərdlə dolu can gəzdirirəm.**

Amma "içi dərdlə dolu can gəzdirən" bu aşiq ona da ümidlidir ki: "Eşqin yolu boran, çovğun, Ürəyində həsrət qorxun. Ömrün boyu oğrun-oğrun. Gözün məni axtaracaq". Sevgidə hicran var, həsrət var, amma ümid də var və bu ümidin yolları vüsala aparmaya da bilər. Elə o əzabı yaşamaq özü YAŞAMAQ deməkdir.

Kitabdakı sevgi şeirlərinin təbii və yaşanılan hisslərdən yarandığına şübhə etmirəm. Sevgi hissləri təmiz və safdırsa, onun qəmi də var, sevinci də!

Hələlik qəm notları üstündür:

**Sən gəlmirsən, əvəzində**
**Qəm gəlir qəmin üstünə.**
**Kədər notlarıdır yağan**
**O sarı simin üstünə.**

Kitabda "Babalar" lirik poeması da təqdim edilir. Bu poema başdan-ayağa nikbin çalarlıdır. Çünki babalardan qəmli danışmaq olmaz. Babalar Günəşdir, işıqdır, şamdır, müdriklik mücəssiməsidir. Şəmsinin bu poemasında konkret bir baba obrazı olmasa da, ümumiləşmiş halda bütün babaların obrazı yaradılmışdır. Kəndçi babalarının mənəvi dünyasını, torpağa, təbiətə bağlılığını əks etdirən bu poema lirik səciyyəsi, dilinin səlisliyi ilə seçilir.

**Mənim kəndçi-əkinçi,**
**Mənim cütçü-biçinçi**
**Babalarımdan olmazdı**
**Babam əkdiyi torpaqda**
**Söz göyərdi zəmi-zəmi.**
**Dalğalandı dəniz kimi!**
**Tanrıdan bəxşiş kimi!**
**Sünbül-sünbül**
**Dənə doldu.**
**Xırman çağı**
**El barındı**
**Könüllərdə yandı çıraq.**

Şəmsi Vəfadarın yeni kitabında bir sıra elə şeirlər də var ki, onları kitaba salmamaq da olardı. Bu şeirlərdə məzmun var, amma poetik ifadə baxımından zəifdir.

**SONDA:**

**Dilimdə Allah kəlməsi,**
**Qulağımda azan səsi.**
**Nə vermisən, şükür, bəsim,**
**Tanrım, sənə sarı gəlləm.**

Öz tanrısına doğru yol gedən şairə uğurlar arzulayaq. Tanrı verib ona belə bir şairlik duyğusunu...



1 oktyabr.-2016.- S.15.